## Ödəniş məbləği, forması və vasitələri

Qeydiyyat üçün birinci semestrlik təhsil haqqının və tələbə xərclərinin ödənilməsi tələb olunur. Birinci semestr üçün təhsil haqqı və tələbə xərcləri ixtisaslar üzrə aşağıda göstərilmişdir. Bu məbləğ depozit məbləğidir və geri qaytarılmır.

### Birinci semestr üçün tam təhsil haqqı və tələbə xərcləri

| İxtisas | Məbləğ |
|---|---|
| Biznesin idarə edilməsi | 3250 AZN |
| İqtisadiyyat | 3250 AZN |
| Maliyyə | 4000 AZN |
| Beynəlxalq münasibətlər | 3000 AZN |
| Dövlət və ictimai münasibətlər | 3000 AZN |
| Kommunikasiya və rəqəmsal media | 3000 AZN |
| Kompüter elmləri | 3000 AZN |
| Kompüter mühəndisliyi | 3000 AZN |
| İnformasiya texnologiyaları | 3000 AZN |
| Riyaziyyat | 3000 AZN |
| Elektrik və elektronika mühəndisliyi | 3000 AZN |
| Kənd təsərrüfatı texnologiyaları | 3000 AZN |
| Heyvandarlıq | 1500 AZN |
| Qida texnologiyaları | 3000 AZN |
| Dizayn (interyer dizaynı) | 3000 AZN |
| Dizayn (kommunikasiya dizaynı) | 3000 AZN |
| Memarlıq | 3000 AZN |
| Şəhərsalma | 3000 AZN |

**Ödəniş 2 yolla aparılır:**

1. İstənilən banka yaxınlaşaraq ödəniş formasını təqdim etməklə nəğd şəkildə

2. https://online.ada.edu.az/payment/ keçidinə daxil olaraq elektron qaydada ödəniş edə bilərsiniz.

Onlayn ödəniş zamanı verilən seçimlərdən 5. hissədə **Deposit fee/ deposit ödənişi** seçimi edərək ödənişini tamamlayın.

**Qeyd: Ödənişlərin hesabımıza həmin gün daxil olması üçün ödənişləri Onlayn və ya PAŞA Bankda etməyiniz tövsiyyə olunur.**

**Aşağıdakı sosial statusu olan şəxslər yalnız tələbə xərcini (375 AZN) ödəyir:**

- 61–100% əlilliyi olanlar
- Məcburi köçkünlər
- Şəhid ailələrinin 23 yaşadək üzvləri
- Müharibə veteranları
- Azərbaycan Respublikası ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları
- Valideyn himayəsindən məhrum şəxslər

**Daha ətraflı:** https://edu.gov.az/az/news-and-updates/20298-1

Güzəşti təsdiq edən sənəd Elm və Təhsil Nazirliyinin elektron portalında qeydiyyat zamanı təqdim oluna bilmədiyi halda müvafiq güzəşt ilk semestrə tətbiq olunmayacaq. Universitetə qeydiyyat zamanı güzəşt sənədləri Maliyyə şöbəsinə təqdim olunmalıdır. Müvafiq yoxlama və təsdiqdən sonra bu güzəşt yalnız növbəti semestrdən etibarən tətbiq oluna bilər.

**Ödəniş məsələləri üçün əlaqə:**

Email: bfa@ada.edu.az
Telefon: 050 243 12 13

Zənglərin çoxluğunu nəzərə alaraq suallarınızı e-mail vasitəsilə göndərməyinizi məsləhət görürük.